AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN • DÖVLƏT • İQTİSAD • UNİVERSİTETİ
1930

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**Təsdiq edirəm:**
**"İctimai idarəetmə və sosial innovasiyalar"**
**kafedrasının müdiri: i.f.d., dos. E.Q.Məmmədov**
**12 sentyabr 2025-ci il**

# "İNSAN İNKİŞAFININ ƏSASLARI"

**FƏNNİ ÜZRƏ**

**İŞÇİ TƏDRİS PROQRAMI**

**(S İ L L A B U S)**

## FƏNN HAQQINDA MƏLUMAT

| | |
|---|---|
| **Fənnin kodu:** | **00423** |
| **Fənnin növü:** | **əsas** |
| **Tədris ili:** | **2025/2026** |
| **Fənnin tədris semestri:** | **yaz** |
| **Fənnin tədris forması:** | **əyani** |
| **Tədris dili:** | **Azərbaycan** |
| **Fakültə:** | **İqtisadiyyat və idarəetmə** |
| **Qrup:** | **250, 251, 252 III kurs** |
| **Kafedra:** | **"İctimai idarəetmə və sosial innovasiyalar"** |
| **Tədris yükü:** | **90 saat (mühazirə -30 saat / məşğələ - 30/30 saat)** |
| **Kredit sayı:** | **4 (dörd)** |

## MÜƏLLİM HAQQINDA MƏLUMAT

**Fənni tədris edən müəllim:** **dosent. Bayramov Qəhrəman S.**

**E-mail ünvan:** qehreman.bayramli@bk.ru

**İş telefonu:** **012 564 37 05**

**Tələbələr üçün qəbul vaxtları: çərşənbə, saat 12.00-14.00**

## FƏNNİN TƏSVİRİ

Davamlı insan inkişafı konsepsiyası XX əsrin son onilliyində BMT-nin İnkişaf Proqramı tərəfindən tətbiq edilməyə başlanmışdır. Bu konsepsiyaya görə qlobal, ölkə və region səviyyələrində inkişafın planlaşdırılması, idarə edilməsi və qiymətləndirilməsi zamanı təkcə ümumiləşdirilmiş orta iqtisadi və sosial göstəricilər deyil, insanın cəmiyyətdəki vəziyyəti, onun rifahı təhlil edilib nəzərə alınmalıdır. Bunu qiymətləndirmək üçün isə sağlamlıq, təhsil və gəlirlər kimi göstəricilərin istifadəsi nəzərdə tutulur. Belə yanaşma tamamilə düzgündür və hər hansı bir yerdə aparılan iqtisadi və sosial siyasətin uğurlu olmasından və gəlirlərin ədalətli bölünərək cəmiyyətin hər bir üzvünün rifahının yaxşılaşdırılmasına yönəldilməsindən xəbər verir. Bu konsepsiya və onun əsasında qurulmuş siyasət BMT və onun üzvü olan ölkələr tərəfindən 1990-cı ildən həyata keçirilməyə başlanmışdır. Müstəqillik bərpa olunduqdan sonra Azərbaycan Respublikasında da davamlı insan inkişafına dair monitorinq aparılmasına başlanılmışdır. Bu sahədə vəziyyəti qiymətləndirən ilk milli hesabat 1995-ci ildə dərc edilmişdir. Həmin dövrdən başlayaraq insan inkişafına dair hesabatlar mütəmadi olaraq hazırlanmaqdadır. Ölkənin sürətli inkişafı, müxtəlif islahatların həyata keçirilməsi və bu sahədə beynəlxalq əməkdaşlığın güclənməsi bu prosesin daha geniş vüsət almasından xəbər verir. Ölkədə neft strategiyası çərçivəsində uğurla həyata keçirilən islahatlar da məhz buna yönəldilmişdir. Davamlı insan inkişafı sahəsində bilik və bacarıq təbii sərvətlərlə zəngin olan ölkələr üçün xüsusi əhəmiyyət daşıyır. Bu səbəbdən fənnin tədrisi Azərbaycan Respublikası üçün də olduqca əhəmiyyətlidir.

## FƏNNİN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

Azərbaycan Respublikasında davamlı insan inkişafının tədrisi sahəsində qəbul edilmiş konsepsiya ondan ibarətdir ki, bu fənnin tədrisi yalnız seçilmiş mütəxəssislər üçün olmayıb, ümumi təhsilin vacib elementi kimi qəbul edilir. Bu konsepsiyaya görə ixtisasından, təhsilin istiqamətindən və səviyyəsindən asılı olmayaraq cəmiyyətin hər bir üzvü insanı və onun maraqlarını mərkəzə qoyan fəaliyyəti həyata keçirməyə qadir olmalı və bunun üçün müvafiq bilik almalı və bacarıqlara yiyələnməlidir. Konsepsiyaya görə insan inkişafı sahəsində biliklər, eyni zamanda, ekoloji cəhətdən ətraf mühitə uyğunlaşmış və davamlı inkişafa yönəldilmiş fərdi həyat tərzi, davranış üçün də vacibdir. Müasir dövrdə davamlı insan inkişafı sahəsində bilik və bacarıq ümumi mədəniyyətin ayrılmaz bir hissəsidir və məişət səviyyəsində də əhəmiyyət daşıyır. Bu sahədə biliklər, eyni zamanda, ümumi təhsil və tərbiyənin ən müasir istiqamətlərindən olan sosial məsuliyyətli fəaliyyət və həyat tərzi barəsində biliklərə yiyələnmək üçün də olduqca vacibdir. Bununla əlaqədar, davamlı insan inkişafı haqqında bilik və bacarığın tədrisi ümumi təhsilin bir hissəsinə çevrilmişdir.

## FƏNNİN TƏDRİS METODOLOGİYASI

Bu fənn iqtisadiyyatın inkişafının müasir mərhələsində davamlı insan inkişafı amillərin rolu və onun qiymətləndirilməsi, o cümlədən davamlı inkişaf siyasətinin formalaşmasına təsir edən amilləri, iqtisadi artımın, sosial rifahın, təhsilin, sağlam həyat tərzinin, məşğulluğun, mənzil əlçatanlığının təmin edilməsi və işsizliyə qarşı mübarizədə dövlətin sosial siyasətini, insan inkişafı baxımından gəlirlərin bölgüsü və onu təyin edən amilləri, yoxsulluqla, gender bərabərsizliyi ilə mübarizə tədbirlərini əhatə edir.

## ÖYRƏNMƏNİN NƏTİCƏLƏRİ

Fənni mənimsədikdən sonra tələbə aşağıdakı səriştə və bacarıqlara malik olur:

- İnsan inkişafı konsepsiyası və davamlı inkişaf siyasəti sahəsində bilik və bacarıqların effektiv idarəedilməsi mexanizmlərinin düzgün istifadəsi barədə biliklərə yiyələnəcəklər;
- Dünya ölkələrində İnsan inkişafı indeksinin ölçüləri barədə məlumatlara və biliklərə sahib olacaqlar;

- Azərbaycanda məşğulluğun təmin edilməsi və işsizliyə qarşı mübarizədə dövlətin sosial tədbirlər sistemini dərindən təhlil etmək kimi biliklərə sahib olacaqlar;
- İnsan inkişafı indekslərinin hesablanması prosedurunu müəyyən edən amilləri təhlil etmək bacarıqlarına sahib olacaqlar;
- Təhsil, səhiyyə, güzəştli mənzil təminatı sistemində qanunvericilik aktları, fəaliyyət mexanizmləri və prinsipləri təhlil etmək qabiliyyətinə sahib olacaqlar;
- Davamlı İnsan inkişafının tənzimlənməsində istiadə edilən iqtisadi metod və mexanizmlərin əsas cəhətlərini və üstünlüklərini müəyyənləşdirməklə təhlil etmək bacarıqlarına malik olacaqlar.

***Bilməlidirlər:***

- İnsan inkişafı konsepsiyasının yaranma prosesini və sosial siyasətin yaranma səbəblərini;
- İnsan inkişafı modellərini;
- İnsan inkişafı konsepsiyasının hədəflərinin işsizliyin azaldılmasında, yoxsulluq səviyyəsinin aşağı düşməsində və əlillərin ictimai həyatda iştirakında yaşanacaq hər bir müsbət inkişafda rolunu;
- İnsan inkişafı konsepsiyasının əsas maliyyə mənbəyi olan dövlət büdcəsinin gəlir və xərclərini, büdcədənkənar fondların mahiyyətini;
- İnsan inkişaının idarə olunması ilə demoqrafik siyasət arasında əlaqəni;
- Məşğulluğun təmin edilməsinin tənzimlənməsi metodlarını;
- Yoxsulluq probleminin yaranma səbəblərini;
- Əhalinin həyat səviyyəsində bərabərsizliyi yaradan amilləri və gəlirlərin bölgü səviyyəsini müəyyən etmək üçün istifadə olunan metodları;
- Gəlirindən asılı olmayaraq əhalinin bütün təbəqələrini sosial təhlükələrin verdiyi zərərlərdən qorumaq üçün və vətəndaşların hüquqlarını müdafiə etmək üçün dövlət tərəfindən atılan addımları;
- Gender bərabərliyi sisteminin mahiyyətini, prinsiplərini və formalarını;
- Sosial təcrid olunmanın səbəblərini və Azərbaycan Respublikasının Ayrı-Seçkiliyə Qarşı Mübarizə Sahəsindəki Qanunvericilik Bazasını;
- Mənzilə ehtiyacı olan qrupların müdafiəsinə istiqamətlənmiş sosial siyasətin zəruri səbəblərini;
- Beynəlxalq İnsan inkişafı konsepsiyasının formalaşmasında rol oynayan universal təşkilatların əhəmiyyətini.

***Bacarmalıdırlar:***

- Əhalinin maddi və sosial rifafının yaxşılaşdırılması üçün dövlət tərəfindən tətbiq olunan metodları gələcəkdə fəaliyyət göstərdikləri sferalarda aşılamağı;
- İşçilərdən və işə götürənlərdən alinan siğorta haqları haqqında oxuyub mənimsəməklə əmək haqqından tutulmaların sərbəst şəkildə hesablamasını həyata keçirməyi;
- İşsizliyin aradan qaldırılması yollarını araşdırmağı;
- Kimləri hansı risklərdən necə qorumağı müəyyənləşdirməyi;
- Davamlı insan inkişafının demoqrafik aspektlərini sərbəst şəkildə təhlil edib qiymətləndirməyi;
- Qloballaşma şəraitində davamlı insan inkişafı perspektivlərini müəyyən etməyi;
- Azərbaycanda davamlı insan inkişafının fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi üçün alternativ layihələrin reallaşdırılmğı.

## PREREKVİZİTLƏR:

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn yoxdur.

## FƏNNİN MÜHAZİRƏ MÖVZULARI

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 4 saat (2 saat mühazirə və 2 saat seminar-məşğələ olmaqla) vaxt ayrılır.

**MÖVZU 1.** İnsan inkişafı konsepsiyası.

**MÖVZU 2.** İnsan potensialının inkişaf göstəriciləri.

**MÖVZU 3.** İqtisadi artım, məşğulluq və insan inkişafı.

**MÖVZU 4.** İnsan inkişafının sosial-iqtisadi amilləri.

**MÖVZU 5.** Təhsil və insan inkişafı.

**MÖVZU 6.** Sağlam həyat və insan inkişafı.

**MÖVZU 7.** Dayanıqlı insan inkişafı və ətraf mühit.

**MÖVZU 8.** Davamlı insan inkişafının demoqrafik aspektləri.

**MÖVZU 9.** Gender bərabərsizliyi və insan inkişafı.

**MÖVZU 10.** Qloballaşma və insan inkişafı.

**MÖVZU 11.** İnsan inkişafına mane olan amillər: yoxsulluq.

**MÖVZU 12.** Layiqli həyat səviyyəsi.

**MÖVZU 13.** İnsan inkişafı və bilik iqtisadiyyatı.

**MÖVZU 14.** Mənzillə təminat və insan inkişafı.

**MÖVZU 15.** Azərbaycanda davamlı insan inkişafı.

## FƏNNİN MÜHAZIRƏ MƏTNLƏRİ

Fənn üzrə bütün mühazirə mətnləri, təqdimatlar, müzakirə sualları və tapşırıqlar elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.unec.edu.az), müəllimin şəxsi kabinetində yerləşdirilmişdir.

## ƏSAS DƏRSLİK VƏ ƏDƏBİYYAT


1. Ələkbərov U.K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.
2. Ələkbərov U.K. «Davamlı insan inkişafının əsasları» (Ali məktəblər üçün dərs vəsaiti), Bakı, «Təhsil», 2007, 132 səh.
3. Əsgərov Ə.A., Hüseynov E,M. Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı: 2009.
4. Ələkbərov U.K. Davamlı insan inkişafı. Ali məktəblər üçün proqram və kursun qısa məzmunu. Bakı: Təhsil, 2006.
5. Человеческое развитие: новое измерение социально-экономического прогресса. Учебное пособие, под общ. ред. проф. В.П. Колесова (МГУ). 2-е издание. Москва: Права человека, 2008.
6. Amartya Sen. A Decade of Human Development. Journal of Human Development. Volume 1, No. 1, 2007.
7. Amartya Sen. Development as Freedom. OUP: 1998.
8. Michael P. Todaro & Stephen C. Smith. Economic Development. 8th edition. Addison-Wesley, 2002.
9. http://e-qanun.az/
10. http://sosial.gov.az/

## MÖVZULARIN MƏZMUNU VƏ TƏDRİS-TEMATİK BÖLGÜSÜ

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat sıyahısı |
|---|---|---|---|
| **1.** | İnsan inkişafı konsepsiyası | İnsan inkişafı haqqında ümumi məlumat; İnsan inkişafı konsepsiyasının aspektləri və əsas prinsipləri; İnsan inkişafıkonsepsiyasının mənbələri | 1. Ələkbərov U.K. “Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları”. Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.<br><br>2. Ələkbərov U.K. «Davamlı insan inkişafının əsasları» (Ali məktəblər üçün dərs vəsaiti), Bakı, «Təhsil», 2007, 132 səh.<br>3. Əsgərov Ə.A., Hüseynov E,M. Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı: 2009.<br><br>4. Ələkbərov U.K. Davamlı insan inkişafı. Ali məktəblər üçün proqram və kursun qısa məzmunu. Bakı: Təhsil, 2006.<br><br>5. Человеческое развитие: новое измерение социально-экономического прогресса. Учебное пособие, под общ. ред. проф. В.П. Колесова (МГУ). 2-е издание. Москва: Права человека, 2008. |
| **2.** | İnsan potensialının inkişaf göstəriciləri | İnsan inkişafı indeksi və onun komponentləri; İnsan inkişafına dair əlavə indekslər | 1. Ələkbərov U.K. “Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları”. Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.<br><br>2. Ələkbərov U.K. «Davamlı insan inkişafının əsasları» (Ali məktəblər üçün dərs vəsaiti), Bakı, «Təhsil», 2007, 132 səh.<br>3. Əsgərov Ə.A., Hüseynov E,M. Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı: 2009.<br><br>4. Ələkbərov U.K. Davamlı insan inkişafı. Ali məktəblər üçün proqram və kursun qısa məzmunu. Bakı: Təhsil, 2006.<br><br>5. Человеческое развитие: новое измерение социально-экономического прогресса. Учебное пособие, под общ. ред. |

| | | | |
|---|---|---|---|
| | | | проф. В.П. Колесова (МГУ). 2-е издание. Москва: Права человека, 2008. |
| **3.** | İqtisadi artım, məşğulluq və insan inkişafı | İqtisadi artım və insan inkişafı; İqtisadi artım və məşğulluq; Məşğulluq və insan inkişafı - sosial münaqişə və iqtisadi dəyərlər; Məşğulluğun və insan inkişafının yeni formaları | 1. Ələkbərov U.K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.<br><br>2. Ələkbərov U.K. «Davamlı insan inkişafının əsasları» (Ali məktəblər üçün dərs vəsaiti), Bakı, «Təhsil», 2007, 132 səh.<br>3. Əsgərov Ə.A., Hüseynov E,M. Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı: 2009.<br><br>4. Человеческое развитие: новое измерение социально-экономического прогресса. Учебное пособие, под общ. ред. проф. В.П. Колесова (МГУ). 2-е издание. Москва: Права человека, 2008.<br><br>5. Барсукова С.Ю. 2004. Неформальная экономика: экономико-социологический анализ. М.: Изд. Дом ГУ ВШЭ. |
| **4.** | İnsan inkişafının sosial-iqtisadi amilləri | Məhsuldar məşğulluq və insan inkişafı üçün layiqli iş; Sənaye sektoru və insan inkişafı; Enerji sektoru və insan inkişafı; Kənd təsərrüfatı sektoru və insan inkişafı; Ticarət, investisiya mühiti və özəl sektorun inkişafı | 1. Ələkbərov U.K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.<br><br>2. Ələkbərov U.K. «Davamlı insan inkişafının əsasları» (Ali məktəblər üçün dərs vəsaiti), Bakı, «Təhsil», 2007, 132 səh.<br>3. Əsgərov Ə.A., Hüseynov E,M. Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı: 2009.<br><br>4. Ələkbərov U.K. Davamlı insan inkişafı. Ali məktəblər üçün proqram və kursun qısa məzmunu. Bakı: Təhsil, 2006.<br><br>5. Человеческое развитие: новое измерение социально-экономического прогресса. Учебное пособие, под общ. ред. проф. В.П. Колесова (МГУ). 2-е |

| | | | |
|---|---|---|---|
| | | | издание. Москва: Права человека, 2008. |
| **5.** | Təhsil və insan inkişafı | Ümumi baxış;Təhsil və insan inkişafı konsepsiyası;Təhsil siyasətinin elementləri; Azərbaycanda təhsil sistemi | 1. Ələkbərov U.K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.<br><br>2. Ələkbərov U.K. «Davamlı insan inkişafının əsasları» (Ali məktəblər üçün dərs vəsaiti), Bakı, «Təhsil», 2007, 132 səh.<br>3. Əsgərov Ə.A., Hüseynov E,M. Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı: 2009.<br><br>4. Ələkbərov U.K. Davamlı insan inkişafı. Ali məktəblər üçün proqram və kursun qısa məzmunu. Bakı: Təhsil, 2006.<br><br>5. Человеческое развитие: новое измерение социально-экономического прогресса. Учебное пособие, под общ. ред. проф. В.П. Колесова (МГУ). 2-е издание. Москва: Права человека, 2008. |
| **6.** | Sağlam həyat və insan inkişafı | Ümumi baxış; Sağlamlığa və insan inkişafına təsir edən amillər; Xəstəliklərin insanların rifahına və insan inkişafına təsiri; BMT-nin Minilliyin inkişaf Məqsədlərində Səhiyyənin Önəmi; Azərbaycan: Səhiyyə sistemində keçid mərhələsi | 1. Ələkbərov U.K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.<br><br>2. Ələkbərov U.K. «Davamlı insan inkişafının əsasları» (Ali məktəblər üçün dərs vəsaiti), Bakı, «Təhsil», 2007, 132 səh.<br>3. Əsgərov Ə.A., Hüseynov E,M. Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı: 2009.<br><br>4. Ələkbərov U.K. Davamlı insan inkişafı. Ali məktəblər üçün proqram və kursun qısa məzmunu. Bakı: Təhsil, 2006.<br><br>5. Человеческое развитие: новое измерение социально-экономического<br><br>прогресса. Учебное пособие, под общ. ред. проф. В.П. Колесова |

| | | | |
|---|---|---|---|
| | | | (МГУ). 2-е издание. Москва: Права человека, 2008. |
| **7.** | Dayanıqlı insan inkişafı və ətraf mühit | İnsan inkişafı və ekoloji dayanıqlıq; Ətraf mühitin deqradasiyasının insan inkişafına təsiri; Ətraf mühit və iqtisadiyyatın balanslaşdırılması; Davamlı inkişaf üçün ekoloji siyasətlər və bazar mexanizmlərindən istifadə edən iqtisadi alətlər | 1. Ələkbərov U.K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.<br><br>2. Ələkbərov U.K. «Davamlı insan inkişafının əsasları» (Ali məktəblər üçün dərs vəsaiti), Bakı, «Təhsil», 2007, 132 səh.<br>3. Əsgərov Ə.A., Hüseynov E,M. Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı: 2009.<br><br>4. Ələkbərov U.K. Davamlı insan inkişafı. Ali məktəblər üçün proqram və kursun qısa məzmunu. Bakı: Təhsil, 2006.<br><br>5. Человеческое развитие: новое измерение социально-экономического<br><br>прогресса. Учебное пособие, под общ. ред. проф. В.П. Колесова (МГУ). 2-е издание. Москва: Права человека, 2008. |
| **8.** | Davamlı insan inkişafının demoqrafik aspektləri | Sosial-iqtisadi inkişafda demoqrafik amillər;<br><br>Azərbaycanın demoqrafik inkişafının əsas meylləri və yaş strukturu; Demoqrafik inkişafın perspektivləri;<br><br>Demoqrafik siyasət | 1. Ələkbərov U.K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.<br><br>2. Ələkbərov U.K. «Davamlı insan inkişafının əsasları» (Ali məktəblər üçün dərs vəsaiti), Bakı, «Təhsil», 2007, 132 səh.<br>3. Əsgərov Ə.A., Hüseynov E,M. Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı: 2009.<br><br>4. Ələkbərov U.K. Davamlı insan inkişafı. Ali məktəblər üçün proqram və kursun qısa məzmunu. Bakı: Təhsil, 2006.<br><br>5. Человеческое развитие: новое измерение социально-экономического<br><br>прогресса. Учебное пособие, под общ. ред. проф. В.П. Колесова |

| | | | |
|---|---|---|---|
| | | | (МГУ). 2-е издание. Москва: Права человека, 2008. |
| **9.** | Gender bərabərsizliyi və insan inkişafı | İnsan inkişafı, insan qabiliyyətləri və bərabərlik; Gender nədir? Gender bərabərsizliyi yalnız qadın problemi deyil; Gender bərabərliyi; Qlobal miqyasda inkişaf siyasəti və gender; Gender yönümlü həssas yanaşma; Gender bərabərsizliyi göstəricisi və insan inkişafı; Azərbaycan: gender bərabərliyi və insan inkişafı | 1. Ələkbərov U.K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.<br><br>2. Ələkbərov U.K. «Davamlı insan inkişafının əsasları» (Ali məktəblər üçün dərs vəsaiti), Bakı, «Təhsil», 2007, 132 səh.<br>3. Əsgərov Ə.A., Hüseynov E,M. Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı: 2009.<br><br>4. Ələkbərov U.K. Davamlı insan inkişafı. Ali məktəblər üçün proqram və kursun qısa məzmunu. Bakı: Təhsil, 2006.<br><br>5. Человеческое развитие: новое измерение социально-экономического<br><br>прогресса. Учебное пособие, под общ. ред. проф. В.П. Колесова (МГУ). 2-е издание. Москва: Права человека, 2008. |
| **10.** | Qloballaşma və insan inkişafı | Qloballaşmaya müxtəlif baxışlar; Qloballaşma prosesində müxtəlif meyllər; Qloballaşma və genişlənən beynəlxalq ticarət; Qloballaşan dünyada iqtisadi və maliyyə böhranların insanların maddi rifahına təsiri; Azərbaycan qloballaşma prosesində | 1. Ələkbərov U.K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.<br><br>2. Ələkbərov U.K. «Davamlı insan inkişafının əsasları» (Ali məktəblər üçün dərs vəsaiti), Bakı, «Təhsil», 2007, 132 səh.<br>3. Əsgərov Ə.A., Hüseynov E,M. Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı: 2009.<br><br>4. Ələkbərov U.K. Davamlı insan inkişafı. Ali məktəblər üçün proqram və kursun qısa məzmunu. Bakı: Təhsil, 2006.<br><br>5. Человеческое развитие: новое измерение социально-экономического<br><br>прогресса. Учебное пособие, под общ. ред. проф. В.П. Колесова |

| | | | |
|---|---|---|---|
| | | | (МГУ). 2-е издание. Москва: Права человека, 2008. |
| **11.** | İnsan inkişafına mane olan amillər: yoxsulluq | Yoxsulluğun mahiyyəti; Yoxsulluğun səbəbləri; Yoxsulluq davamlı insan inkişafı baxımından; Yoxsulluqdan ən çox əziyyət çəkən qruplar; Yoxsulluğun qiymətləndirilməsinin ümumi prinsipləri; Yoxsulluğun inkişafda olan ölkələrdə qiymətləndirilməsi; Yoxsulluğun inkişaf etmiş ölkələrdə qiymətləndirilməsi; Azərbaycanda yoxsulluqla mübarizə | 1. Ələkbərov U.K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.<br>2. Ələkbərov U.K. «Davamlı insan inkişafının əsasları» (Ali məktəblər üçün dərs vəsaiti), Bakı, «Təhsil», 2007, 132 səh.<br>3. Əsgərov Ə.A., Hüseynov E,M. Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı: 2009.<br>4. Ələkbərov U.K. Davamlı insan inkişafı. Ali məktəblər üçün proqram və kursun qısa məzmunu. Bakı: Təhsil, 2006.<br>5. Человеческое развитие: новое измерение социально-экономического<br>прогресса. Учебное пособие, под общ. ред. проф. В.П. Колесова (МГУ).<br>2-е издание. Москва: Права человека, 2008. |
| **12.** | Layiqli həyat səviyyəsi | İqtisadi artım və insan inkişafı anlayışı; Rifah və həyat standartları; Bərabərsizlik, sosial inteqrasiya və insan inkişafı; Azərbaycan: iqtisadi uğur hekayəsi | 1. Ələkbərov U.K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.<br>2. Ələkbərov U.K. «Davamlı insan inkişafının əsasları» (Ali məktəblər üçün dərs vəsaiti), Bakı, «Təhsil», 2007, 132 səh.<br>3. Əsgərov Ə.A., Hüseynov E,M. Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı: 2009.<br>4. Ələkbərov U.K. Davamlı insan inkişafı. Ali məktəblər üçün proqram |

| | | | |
|---|---|---|---|
| | | | və kursun qısa məzmunu. Bakı: Təhsil, 2006.<br><br>5. Человеческое развитие: новое измерение социально-экономического<br><br>прогресса. Учебное пособие, под общ. ред. проф. В.П. Колесова (МГУ).<br><br>2-е издание. Москва: Права человека, 2008. |
| **13.** | İnsan inkişafı və bilik iqtisadiyyatı | Bilik cəmiyyətinin yüksəlişi; Bilik və məlumat; Bilik cəmiyyətində əmtəənin dəyəri; Bilik cəmiyyətində şirkət; Bilik İqtisadiyyatı: mühüm xüsusiyyətləri | 1. Ələkbərov U.K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.<br><br>2. Ələkbərov U.K. «Davamlı insan inkişafının əsasları» (Ali məktəblər üçün dərs vəsaiti), Bakı, «Təhsil», 2007, 132 səh.<br>3. Əsgərov Ə.A., Hüseynov E,M. Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı: 2009.<br><br>4. Ələkbərov U.K. Davamlı insan inkişafı. Ali məktəblər üçün proqram və kursun qısa məzmunu. Bakı: Təhsil, 2006.<br><br>5. Человеческое развитие: новое измерение социально-экономического<br><br>прогресса. Учебное пособие, под общ. ред. проф. В.П. Колесова (МГУ).<br><br>2-е издание. Москва: Права человека, 2008. |
| **14.** | Mənzillə təminat və insan inkişafı | İnsan inkişafı konsepsiyası işığında mənziltəhlükəsizliyi; Faktiki mənzil təminatının təhlili; Mənzil bərabərsizliyi; Mənzil əldə etməyin müxtəlif | 1. Əhmədov M.M. "Azərbaycanda mənzil bazarının inkişafı: reallıqlar və perspektivlər" Monoqrafiya. Bakı, "İqtisad Universiteti" , 2016. – 290 s. |

| | | | |
|---|---|---|---|
| | | yollarını seçmək imkanları; Mənzil hüquqları; Mənzil almaq yolları; Mənzilin əlçatanlığı; Mənzil təminatının yaxşılaşdırılması: məqsədlər, vəzifələr və alətlər | **2.** Сироткин, В. А. Экономические механизмы формирования рынка жилой недвижимости: монография / В. А. Сироткин. Екатеринбург: Изд-во Рос. гос. проф.-пед. ун-та, 2012. 252 с.:<br><br>3. Ələkbərov U.K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.<br><br>4. Əsgərov Ə.A., Hüseynov E,M. Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı: 2009. |
| **15.** | Azərbaycanda davamlı insan inkişafı | İnsan potensialının inkişafı ölkənin prioriteti kimi; BMT-nin Azərbaycan Respublikasında İnsan inkişafı haqqında hesabatları; İnsan inkişafı haqqında hesabatların əsas mövzuları və onların davamlı inkişafa təsiri; «Qara qızılın «insan potensialına» çevrilməsi siyasəti; Kreativ millətin formalaşmasında insan potensialının rolu. | 1. Ç.İsmayılov, Ə.Abdullayev və b. Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2018. – 252 səh.<br><br>2. Ələkbərov U.K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2013, 224 səh.<br><br>3. Ələkbərov U.K. «Davamlı insan inkişafının əsasları» (Ali məktəblər üçün dərs vəsaiti), Bakı, «Təhsil», 2007, 132 səh. |
| **YEKUN İMTAHAN** | | | |

## SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs

hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

## DƏRSƏ DAVAMİYYƏT

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

## FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ (*Əyani təhsilalma forması üzrə*)

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$$

Burada,

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - “əvəzgün” verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən fənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb

edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

*QEYD:* İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

## TƏCRÜBƏ

Bu fənn üzrə istehsalat təsrübəsi yalnız ixtisas qrupları üzrə nəzərdə tutulub.

**Tərtib etdi:**
**"İctimai idarəetmə və sosial innovasiyalar"**

**kafedrasının dosenti,** **i.e.n., dos. Q.S.Bayramov**